


**Fevralın 9-da Fransanın "Opinion Way" Sosioloji Araşdırmalar İnstitutunun baş direktoru Bruno Janbar parlament seçkilərində rəhbərlik etdiyi qurum tərəfindən reallaşdırılan "exit-poll"un nəticələrini jurnalistlərin diqqətinə çatdırdıqdan sonra ona respublikamızda bu mühüm kampaniya ilə bağlı fikirlərini bildirməsini xahiş etdik. Bruno Janbar dedi:**

# "Azərbaycanın seçkilərə səylə hazırlaşdığının şahidi olduq"

–Əvvəla onu qeyd edim ki, "Exzit poll"un səsvermənin ədalətli nəticələrinin vətəndaş cəmiyyəti tərəfindən qəbul edilməsində böyük əhəmiyyət daşıdığı üçün işimizə hər zaman məsuliyyətlə yanaşırıq. Ona görə də rəhbərlik etdiyim institut həm Fransada, həm də beynəlxalq miqyasda yaxşı tanınır və nüfuzlu telekanallar və qəzetlərin sifarişi ilə ictimai rəyin öyrənilməsi ilə bağlı mütəamadi tədqiqatlar aparır.

Azərbaycanda parlament seçkiləri ilə bağlı həyata keçirdiyimiz və bir az əvvəl barəsində danışdığım sorğu 236 seçki məntəqəsində 10 min 119 seçici arasında reallaşdırılıb. Həmin "exit-poll"da seçici fəallığı 55,60 faiz qeydə alınıb.

Sorğuya, eləcə də müşahidələrimizə əsasən deyə bilərəm ki, ölkənizdə parlament seçkiləri rəqabətli, açıq, azad şəraitdə və demokratik seçki normalarına uyğun sona çatdı.

Onu da vurğulayım ki, Azərbaycan Respublikasının Seçki Məcəlləsi ilə tanışam və deyə bilərəm ki, bu məcəllə azad və demokratik seçkilərin beynəlxalq normalarına uyğundur və vətəndaşların iradəsini əks etdirir.

Etiraf etməliyəm ki, müşahidələrimiz zamanı seçkilərin şəffaf, azad və demokratik formada keçməsi üçün Mərkəzi Seçki Komissiyası tərəfindən də böyük işlər görüldüyünün şahidi olduq. İnstitutumuzun əməkdaşlarının seçkilərə dair informasiyadan və materiallardan tam istifadə edə bilmələri də bu fikrin real təsdiqidir.

Sorğumuzda iştirak edən seçicilər də seçki məntəqələrindəki şəraitdən razı qaldıqlarını bildirdilər. Vətəndaşlardan demək olar ki, elə bir ciddi şikayət eşitmədik. Ümumiyyətlə, seçkilərin legitimliyini şübhə altına qoyan faktlarla üzləşmədik. Namizədlərin sayının çox olmasınıa isə müsbət hal kimi yanaşırıq. Çünki belə təqdirdə insanların seçmə alternativi yüksək olur.

Bir sözlə, biz Azərbaycanda belə məsul seçkilərə əsaslı və səylə hazırlaşıldığının şahidi olduq. Bütün bunlar isə şübhəsizdir ki, ölkənizdə aparılan islahatların səmərəliliyinə müsbət təsir göstərəcəkdir.

***Söhbəti qələmə aldı:***
***V.BAYRAMOV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti 2020.- 12 fevral.- S.6.